01.12.17

**"Patron-L" Məhdud Məsuliyyətli Cəmiyyətinə**

*AZ10108, Bakı şəhəri, Təbriz küçəsi, 21*

*21 noyabr 2017-ci il tarixli*
*18 nömrəliyə*

"Patron-L" Məhdud Məsuliyyətli Cəmiyyətinin sığorta bazarının peşəkar iştirakçılarının reyestrinə daxil edilməsi ilə bağlı müraciətinə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasında (Palata) baxılmışdır.

Bununla əlaqədar bildiririk ki, "Patron-L" Məhdud Məsuliyyətli Cəmiyyəti 30 noyabr 2017-ci il tarixində yardımçı hüquqi şəxs kimi "sığorta sahəsində yardımçı hüquqi şəxslərin və müstəqil ekspertlərin reyestri"nə daxil edilmişdir.

Nəzərinizə çatdırırıq ki, "Sığorta bazarının peşəkar iştirakçılarının reyestrinin aparılması Qaydaları"nın (Qaydalar) 3.1-ci bəndinə əsasən "Patron-L" Məhdud Məsuliyyətli Cəmiyyətinin reyestrə daxil edilməsi üçün təqdim etdiyi sənədlərdəki məlumatlar dəyişdiyi halda, o cümlədən hüquqi şəxsin yenidən təşkil edilməsi və ya ləğv edilməsi, müvafiq fəaliyyətlə məşğul olmaq hüququnun məhdudlaşdırılması, dayandırılması və ya ləğv edilməsi barədə məlumatlar 30 gün müddətində Palataya təqdim edilməlidir. Həmçinin, Qaydaların 4.1.5-ci bəndinə müvafiq olaraq hüquqi şəxsin yenidən təşkili, əsas fəaliyyəti ilə bağlı hər hansı məhdudiyyət və ya qadağanın olması, müvafiq reytinqindən daha aşağı reytinq alması ilə bağlı məlumatlar maliyyə bazarlarına nəzarəti orqanına vaxtında təqdim edilmədikdə hüquqi şəxs reyestrdən çıxarılır.

**Baş icraçı direktor** **İbrahim Alışov**